# Çində Azərbaycan Prezidentinə göstərilən rəğbət onun beynəlxalq roluna hörmətin göstəricisidir

**"Böyük coğrafi ərazini əhatə edən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) qlobal ümumi daxili məhsulun 25 faizini və dünya əhalisinin də 40 faizini təşkil edir. Təşkilat böyük sürətlə artan istehsal imkanlarına, insan kapitalına və zəngin təbii sərvətlərə malik ölkələrdən ibarətdir. ŞƏT-in əsas məqsədi mehriban qonşuluq və dostluq münasibətlərinin qurulması, qarşılıqlı etimadın güclənməsi, müxtəlif sahələrdə effektiv əməkdaşlığın təşviqi, regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün birgə səylərin dəstəklənməsi, ədalətli yeni beynəlxalq siyasi və iqtisadi quruluşun yaradılmasıdır. Qısacası, məcburetməyə, təhdidə əsaslanan birqütblü dünya düzəninin əksinə, bərabər maraqlara, iqtisadi əməkdaşlığa, bərabər hüquqa söykənən çoxqütblü dünya düzəninin yaradılması təşkilat üçün prioritetdir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Yalçın Hacızadə söyləyib.

O xatırladıb ki, Şanxay Əməkdaşlıq Təşkilatının Dövlət Başçıları Şurasının 2015-ci il iyulun 10-da keçirilən iclasında Azərbaycan Respublikasına dialoq üzrə tərəfdaş statusunun verilməsi barədə qərar, 2016-cı il martın 14-də isə Pekində ölkəmizlə ŞƏT arasında ümumi əməkdaşlıq istiqamətlərini nizamlayan "Azərbaycan Respublikasına ŞƏT-in dialoq üzrə tərəfdaşı statusunun verilməsi haqqında Memorandum" imzalanıb. Bu baxımdan da çoxvektorlu xarici siyasət həyata keçirməyi beynəlxalq siyasətində prioritet hesab edən ölkəmizin Şanxay Əməkdaşlıq Təşkilatına üzv olmaq istəməsi milli maraqlarımıza uyğundur. Azərbaycan təşkilata üzv və dialoq tərəfdaşı olan bir çox ölkələrlə "strateji və ya müttəfiqlik" əlaqələrinə malikdir. Eyni zamanda təşkilata daxil olan bir çox ölkələr bir-biri ilə, o cümlədən Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən dəhliz ölkəsidir. Ona görə coğrafi mövqeyimizin verdiyi üstünlüklərdən və regionda yaratdığımız təhlükəsizlik şəraitindən və iqtisadi imkanlardan yararlanaraq, birqütblü dünyanın qlobal siyasi sistemə verdiyi mənfi nəticələri görərək Şanxay Əməkdaşlıq Təşkilatına üzvü olmaq əhəmiyyətlidir. Eyni zamanda ölkəmizin imkanları da təşkilatın öz məqsədlərini həyata keçirməsi üçün bizimlə əməkdaşlığın onun üçün də çox faydalı ola biləcəyini göstərir.

"Şanxay Əməkdaşlıq Təşkilatının 25-ci Zirvə görüşündə iştirak edən Prezident İlham Əliyevə olan münasibət, onun qarşılanması, göstərilən səmimi rəğbət, keçirdiyi görüşlər Azərbaycanın əhəmiyyətinin, beynəlxalq rolunun yüksək qiymətləndirildiyinin göstəricisidir. Təşkilatın əsas lokomotivi və özəyi olan Çinin ölkəmizlə sürətlə artan əlaqələri və əməkdaşlığı, "Bir kəmər, bir yol" layihəsinə verdiyimiz dəstək, Çin rəhbərinin Prezident İlham Əliyevlə olan səmimi münasibəti və onu Çinin "böyük dostu" adlandırması, təşkilatın digər üzvləri olan ölkələrlə sıx əlaqələrimiz gələcəkdə ŞƏT-in üzvü olmaq potensialımızı gücləndirir.

Azərbaycanın ŞƏT üçün verəcəyi töhfəni görməzdən gələrək, nəqliyyat-kommunikasiya imkanlarından təşkilatın istifadə etməsinin qarşısını almağa çalışan, təşkilatda bölücülük fəaliyyəti aparan, cılız qisas ümidində olan Hindistanın bizə qarşı veto siyasəti müttəfiqlərimiz tərəfindən tezliklə aradan qaldırılacaq.

Şanxay Əməkdaşlıq Təşkilatının 25-ci Zirvə görüşündə Prezident İlham Əliyevin iştirakı, bu ilin avqust ayının 8-də Vaşinqtonda imzalanan Bəyannamənin dəstəklənməsi, Azərbaycanın regionda həyata keçirdiyi sülh gündəliyinə verilən yüksək önəm təşkilatla ölkəmiz arasında münasibətlərin yeni müstəviyə keçdiyini göstərir", - deyə Y.Hacızadə vurğulayıb.

azerbaijan-news.az

Azərbaycan .- 2025.- 4 sentyabr (№ 187).- S.7.